# Qardaşım İlham Əliyevin dəstəyini millətimiz heç vaxt unutmayacaq

## Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin səfərinin Türkiyə üçün vacib və əhəmiyyətli olduğunu bəyan etdi



**Azərbaycan və Türkiyə dövlətləri arasında tarixi təməl üzərində qurulan münasibətlər sürətlə inkişaf edərək qısa müddətdə analoqu olmayan müttəfiqlik zirvəsinə yüksəlib. İki ölkə arasında münasibətlərin əlahiddə xarakteri həm də onunla şərtlənir ki, qardaş Türkiyə və Azərbaycan kifayət qədər çətin və mürəkkəb şəraitdə daim bir-birinə dəstək olurlar. Prezident İlham Əliyevin bu günlərdə Türkiyəyə işgüzar səfəri də iki dost ölkə arasında strateji müttəfiqlik münasibətlərinin əbədi və dönməz xarakter aldığını bir daha təsdiqlədi.**

Prezident İlham Əliyevin təklifi ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Bakıda deyil, Ankarada keçirilməsi Türkiyəyə qardaş dəstəyinin göstərilməsi kimi xarakterizə edilə bilər. Bir neçə gün əvvəl Ankaranın mərkəzində, Qızılayda mülki əhaliyə qarşı törədilən terror aktı çoxsaylı insan tələfatına səbəb olmuşdu. Ölkə başçısının türk xalqının belə bir ağır günündə Türkiyəyə işgüzar səfəri dostluq və həmrəyliyin nümayişi olmaqla yanaşı, iki ölkənin münasibətlərinin strateji xarakter daşıdığını sübuta yetirdi. Xatırladaq ki, Prezident İlham Əliyevin bu səfəri Türkiyə mətbuatında da çox geniş işıqlandırılıb.

Türkdilli dövlətlərin mənəvi birliyi onların siyasi birliyi ilə tamamlanmalı, dünya arenasında mütəşəkkil güc mərkəzi kimi formalaşmasını təmin etməlidir. Bu, milli-dini yaxınlıq amili və təəssübkeşlik prinsiplərindən bir qədər də irəliyə gedərək bütövlükdə türkdilli xalqların dünya siyasətindəki tarixi yerini, təsir imkanlarını, nüfuzunu təmin etməyə yönəlmiş müqəddəs amal, məsuliyyətli və əzmkar missiya kimi özünü göstərir. Bu baxımdan Azərbaycan və Türkiyə dövlətləri arasında əməkdaşlığın güclənməsi regionda iqtisadi tərəqqi və inkişafa, habelə demokratik idealların möhkəmlənməsinə xidmət edir.

Çağdaş dünya təcrübəsində tarixi-etnik köklərlə, eyni dil qrupu, ənənə və dəyərlərlə bir-birinə yaxın olan xalqların vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələr gətirmək mümkündür. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət nəticəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Bundan narahat olan qüvvələr zaman-zaman müəyyən spekulyativ iddialarla iki qardaş ölkə arasında münasibətlərə xələl gətirməyə çalışsalar da, buna nail ola bilmirlər. Bu gün Türkiyə dövləti də yaxşı başa düşür ki, onun Cənubi Qafqaz regionunda ən etibarlı, sınanılmış müttəfiqi məhz Azərbaycandır. Eyni zamanda, Azərbaycan iqtidarı da bu dostluq və qardaşlıq münasibətlərinin yüksələn xətlə inkişafı üçün bütün zəruri tədbirləri görür. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında "Mən başda əziz qardaşım Əliyev olmaqla bütün azərbaycanlı qardaşlarıma millətimiz adından təşəkkür edirəm" - deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan strateji müttəfiq olan ölkələrimizin bundan sonra da bütün məsələlərdə vahid mövqedən çıxış edəcəklərini bir daha bəyan edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk xalqına dostluq və həmrəylik göstərdiyi üçün Azərbaycan dövlətinə minnətdarlığını ifadə edib: "Millətimizin və ölkəmizin bu çətin günündə - Ankaranın mərkəzində, Qızılayda tamamilə mülki əhaliyə qarşı həqiqətən çox ciddi terror aktı - terrorçu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyiniz həmrəyliyə görə öz adımdan və millətimiz adından təşəkkür edirəm. Bu gün Siz mərhum Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını yaşayaraq bunu açıq-aşkar nümayiş etdirdiniz. Bu səfərinizlə bütün dünyaya, xüsusilə də dünyadakı bütün terror təşkilatlarına və onların arxasındakı qüvvələrə çox güclü və dəqiq mesaj verdiyinizə əminəm. Sizə millətim adından bir daha təşəkkürümü bildirirəm".

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə davamlı inkişaf edəcəyi bildirildi. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının əlaqələrimizin daha da dərinləşməsi işinə xidmət etdiyi vurğulandı. İclasda ölkələrimiz arasında həyata keçirilən enerji, nəqliyyat layihələrinin icrası, qarşılıqlı investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı. Dövlət başçıları terrora qarşı mübarizədə birliyin vacib olduğunu xüsusi vurğuladılar.

Prezident İlham Əliyev Türkiyə Prezidenti ilə görüşündə bildirib: "Bu dəhşətli terror aktını qətiyyətlə pisləyirik, qınayırıq və bir daha deyirik ki, biz bu gün türk xalqının yanındayıq. Bizim birliyimiz əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz.

*Ardı 2-ci səh.*

# Qardaşım İlham Əliyevin dəstəyini millətimiz heç vaxt unutmayacaq

## Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin səfərinin Türkiyə üçün vacib və əhəmiyyətli olduğunu bəyan etdi

***(əvvəli 1-ci səhifədə)***

İyirmi beş ildir ki, Türkiyə və Azərbaycan birlik, həmrəylik göstərir. İyirmi beş il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və bizi ilk tanıyan dövlət Türkiyə olmuşdur. Biz bunu heç vaxt unutmayacağıq. Bu, əslində, başqa ölkələrə də bir tövsiyə idi və ondan sonra Azərbaycanı müstəqil dövlət kimi tanıma prosesi sürətlə getməyə başlamışdır. Bu illər ərzində biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır. Bu, əsas məsələdir və biz dostluğumuzun, qardaşlığımızın möhtəşəm binasını bu təməl üzərində inşa edirik".

Azərbaycan Prezidenti İlham Əliyev son 12 illik fəaliyyəti ilə ölkələrimiz arasında strateji müttəfiqlik münasibətlərinin möhkəmlənməsini təmin edib. Dövlət və hökumət başçılarının müntəzəm səfərləri mövcud əməkdaşlığın müxtəlif müstəvilərdə inkişafına təkan verib. Məhz İlham Əliyevin prezidentliyi dövründə Türkiyə üçün müstəsna əhəmiyyəti olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilmiş, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşasına başlanılmışdır. Ölkələrimiz arasında əlaqələr sadəcə enerji sahəsində əməkdaşlıqla məhdudlaşmayıb, digər sahələri də əhatə edir. Regional əməkdaşlıq müstəvisində həm nəqliyyat, həm də enerji sektorundakı təşəbbüslərin artırılması daha böyük uğurlara gətirib çıxarıb. Türk iş adamlarının Azərbaycanda bizneslə məşğul olmasına, qeyri-neft sektorunda mühüm layihələr həyata keçirməsinə bütün zəruri imkanlar yaradılmışdır. Transanadolu, Transadriatik və "Şahdəniz-2" layihələrinin uğurla icrası nəticəsində bölgədə əməkdaşlıq üçün yeni şərait yaradılacaq. Bu layihələr həm iqtisadi, həm siyasi maraqlarımızı təmin edəcək. Türkiyə və Azərbaycan bu layihələrin təşəbbüskarları kimi beynəlxalq əməkdaşlığa da öz töhfəsini verəcək.

Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfərinin yekunları ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bir daha təsdiqlədi. Bu səfər iki ölkə arasında münasibətlərin daha da inkişafına mühüm təkan verəcək, xalqlarımız arasında tarixən mövcud olmuş əlaqələrin bundan sonra da genişlənəcəyinə imkan yaradacaq.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***